# “Şuşa – Azərbaycanın mədəniyyət paytaxtı” biblioqrafiyası nəşr olunub

***Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir. Əsrlər boyu azərbaycanlılar Şuşada yaşayıb, qurub, yaradıblar.***

Şuşa şəhəri azad edildikdən sonra 2021-ci il may ayının 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında” sərəncam imzalamışdır. Bu, möhtərəm Prezidentimizin işğalçılardan azad edilmiş Şuşaya həsr edilmiş ilk sərəncamıdır.

Azərbaycan Milli Kitabxanası tərəfindən Şuşanın işğaldan azad edilməsinin bir illiyi münasibətilə “Şuşa – Azərbaycanın mədəniyyət paytaxtı” adlı biblioqrafiya tərtib olunaraq nəşr edilib. Azərbaycan Milli Kitabxanasının hazırladığı bu kitab Şuşaya həsr olunmuş ilk fundamental biblioqrafiyadır. Biblioqrafiyada Şuşanın tarixi, mədəniyyəti, musiqisi və ədəbi mühiti, tarixi və memarlıq abidələri, ictimai-siyasi həyatı haqqında kitablar, dövri mətbuatda, məcmuələrdə çap olunmuş zəngin materiallar öz əksini tapıb. Kitabda Şuşa haqqında digər xarici dillərdə dərc olunan materiallar, habelə dünya milli və universitet kitabxanalarında mühafizə olunan ədəbiyyat ayrıca bölmələrdə verilib.




Biblioqrafiya tarixçilər, politoloqlar, elmi tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Biblioqrafik göstərici ilə tanış olmaq istəyənlər http://anl.az/down/SHUSHA.pdf linkindən istifadə edə bilərlər.

***M.MÜKƏRRƏMOĞLU,***
***“Xalq qəzeti”***

Xalq qəzeti.- 2021.- 12 noyabr.- S.9.